# **Həftəlik**

# *Bülleten*



**130**

**20 Fevral 2026**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Yerin təkinin istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi qaydası müəyyənləşəcək.**

Yerin təkinin istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi və qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı ilə məşğul olan yer təki istifadəçilərinin fəaliyyətinin sağlamlaşdırılması tədbirlərinə dair qaydalar müəyyənləşəcək. Bu, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin bu gün keçirilən iclasında müzakirəyə "Yerin təki haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb. Qeyd edək ki, yerin təki istifadəyə icazə əsasında bu qanun və "Lisenziyalar və icazələr haqqında" qanun ilə müəyyən olunmuş qaydada hərrac (auksion və ya müsabiqə) və birbaşa danışıqlar əsasında verilir. Eyni zamanda Nazirlər Kabinetinin qərarı ilə yerin təkinin (qiymətli və əlvan metallar, qiymətli daş yataqları və təzahürləri istisna olmaqla) istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi hallarının siyahısı da təsdiq edilib. Təklif olunan dəyişikllik isə yerin təkinin istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi qaydasının təsdiq edilməsini nəzərdə tutur ki, bu da birbaşa danışıqlar yolu ilə verilən istifadəçilərin müəyyən edilməsi sahəsində şəffaflığın yüksəlməsinə, hüquqi müəyyənliyin artmasına xidmət edəcək. Qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı ilə məşğul olan yer təki istifadəçilərinin fəaliyyətinin sağlamlaşdırılması tədbirlərinə dair qaydalar isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunacaq.



**Faydalı qazıntı yataqlarının yerləşdiyi torpaqların rekultivasiyasına dair tələb müəyyənləşir.**

Faydalı qazıntı yataqlarının yerləşdiyi torpaq sahələrinin əvvəlki və ya alternativ faydalı vəziyyətə qaytarılması üçün rekultivasiyasına dair tələb müəyyənləşir. Bu, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin bu gün keçirilən iclasında müzakirəyə "Yerin təki haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb. Qanuna əlavə olunması təklif edilən 13-1-ci maddəyə (Yerin təki sahələrinin rekultivasiyası) əsasən, yerin təki istifadəçiləri işlərin aparıldığı ərazidə torpağın münbitliyinin və digər faydalı xassələrinin qorunması, bərpa edilməsi və yüksəldilməsi, o cümlədən ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması məqsədilə həmin torpaqların rekultivasiyasını rekultivasiya planı əsasında təmin etməlidirlər. Rekultivasiya planı faydalı qazıntıların istismarını, eləcə də yeraltı qurğuların tikintisini və istismarını həyata keçirən fiziki və hüquqi şəxslər tərəfindən yerin təkindən istifadə hüququ əldə edildikdən sonra 3 ay müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rekultivasiya planına dair dövlət ekoloji ekspertizasının müsbət rəyi ilə birlikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana təqdim edilməlidir. Yerin təkindən istifadə sahəsinin xüsusiyyətləri, süxurların kimyəvi tərkibi, çirklənmənin növündən asılı olaraq rekultivasiyanın üsulları və istiqamətləri, o cümlədən müddəti müəyyənləşdirilir, istismarın dərinliyi, faydalı qazıntının növü və istismar ediləcək həcmə uyğun olaraq rekultivasiya planı tərtib olunacaq.



**Yerin təkindən istifadənin daha bir növü müəyyənləşir.**

Bu, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin bu gün keçirilən iclasında müzakirəyə "Yerin təki haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Su anbarlarında və ya sututarlarda toplanan çöküntülərin (qum, qum-çınqıl, gil), habelə tunellərin və ya keçidlərin tikintisi ilə əlaqədar yerin təkindən çıxarılan süxurların istifadəsi yerin təkindən istifadənin növləri sırasına daxil edilir.

Təklif olunan digər dəyişikliyə əsasən, yer təki istifadəçilərinə dağ-mədən işləri ilə əlaqədar istehsal tullantılarından istifadə hüququ müvafiq icra hakimiyyəti orqanının təyin etdiyi qurumun müəyyən etdiyi qaydaya uyğun olaraq veriləcək.



**Sənədsiz evlərlə bağlı vacib xəbər: 15 günə çıxarış veriləcək.**

Nazirlər Kabineti “Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydalarını” təsdiq edib. Yeni qaydalara əsasən, hüquqların dövlət qeydiyyatına alınması üçün təqdim edilən sənədlərlə torpağın kateqoriyası dövlət torpaq kadastrında saxlanılan məlumatlara uyğun gəlmədikdə qeydiyyat orqanının vəzifəli şəxsləri tərəfindən 15 iş günü müddətində yerquruluşu sənədlərinin təhlili yolu ilə araşdırma aparılır. araşdırmanın nəticəsinə əsasən, təqdim edilən sənədlərdə göstərilən məlumatların doğruluğu təsdiq edildikdə, əmlak üzərində hüquqlar dövlət qeydiyyatına alınır və dövlət torpaq kadastrında müvafiq düzəlişlər edilir. İqtisadçı deputat Vüqar Bayramovun sözlərinə görə, əgər vətəndaş daşınmaz əmlakının qeydiyyata alınması ilə bağlı müraciət edən zaman qeydiyyata məsul olan dövlət qurumunda məlumat fərqli olarsa o zaman 15 iş günü ərzində dəqiqləşdirmə aparılır. "Məsələn, vətəndaşın sənədində torpağın təyinatı tikintiyə icazəyə imkan verirsə, amma dövlət qurumunda olan məlumat bazasında o ərazi kənd təsərrüfatı üçün yararlı torpaq kimi görsənirsə o zaman məlumatı dəqiqləşdirmək üçün digər profil qurumlara sorğu göndəriləcək. Sorğu zamanı vətəndaşın sənədinin doğruluğu təsdiq olunarsa həmin daşınmaz əmlak qeydiyyata alınacaq. Bütövlükdə, yeni dəyişikliklər qeydiyyatsız evlərin sənədləşməsi prosesində məlumatların dəqiqləşdirilməsinə xidmət edəcək".



**Azərbaycan və İordaniya şəhərsalma sahəsində birgə layihələri müzakirə edib.**

Azərbaycanın İordaniyadakı səfiri Şahin Abdullayev və Böyük Əmman Bələdiyyəsinin meri Yusif əş-Şavarba görüş zamanı şəhər idarəçiliyi və şəhərsalma sahəsində əməkdaşlıq imkanlarını müzakirə ediblər.

Bu barədə Azərbaycanın İordaniyadakı səfirliyi "X" sosial şəbəkəsində məlumat yayıb.

"Görüş zamanı tərəflər Azərbaycanla İordaniya arasında şəhərsalma və şəhər idarəçiliyi sahəsində əməkdaşlıq perspektivlərini, eləcə də birgə layihələrin icrasını müzakirə ediblər", - məlumatda bildirilib.



**Hörmətli Sahibkarlar,**

27 fevral tarixdə, saat 11:00-da Kral SR Construction şirkətinin yeni açılmış plazasına “infotour” xarakterli ziyarət planlaşdırılır. Plaza Sabunçu Rayonu, Bakıxanov qəsəbəsində yerləşir. Şirkətin rəhbəri ATMİA xətti ilə gələn ziyarətçilərdən orada öz biznes fəaliyyətini təşkil etmək istəyən sahibkarlara xüsusi endirimli qiymət təklif edəcək. Tədbirin ofisdə çay masası ətrafında ətraflı məlumat və daha sonra mərtəbələri ziyarət etməklə 2 (iki) hissədən ibarət olması nəzərdə tutulur.

Qeydiyyat üçün 050 250 95 17 nömrəsi ilə əlaqə yarada bilərsiniz.

anons

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: WARSAW HVAC EXPO 2026**
**Tarixlər: 24 - 26 fevral 2026 -cı il,**
**Məkan: Ptak Varşava Sərgisi, Varşava (Polşa)**
Polşada istilik, ventilyasiya və kondisioner sənayesi üzrə ən böyük sərgi

**Sərginin adı: YUGBUILD 2026**
**Tarixlər: 25-28 fevral 2026-cı il,**
**Məkan: Expograd Yuq, Krasnodar (Rusiya)**
Rusiya beynəlxalq tikinti materialları, mühəndislik, avadanlıq və memarlıq dizaynı sərgisi.Zəngin proqram,görüşlər,danışıqlar

**Sərginin adı: FLOOR TECH PAKISTAN 2026**
**Tarixlər: 27-28 fevral 2026-cı il,**
**Məkan: Sərgi Mərkəzi Lahor, Lahor (Pakistan)**
Pakistanın Müasir və Lüks Plitələr, Mərmər, Vinil və Taxta Döşəmə Dizaynı və Məhsullarını Nümayiş Edən Sərgisi

**Sərginin adı: MIR STEKLA 2026**
**Tarixlər: 04 - 06 Mart 2026 -cı il,**
**Məkan: Expocentr' Krasnaya Presnya Sərgi Meydanı, Moskva (Rusiya)**
Beynəlxalq Şüşə Hazırlama Avadanlıqları, Cihazlar və Emal Avadanlıqları İstehsalı, Şüşə Məmulatları İstehsalı və Marketinqi Sərgisi.

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN TİKİLMƏKDƏ OLAN MÜƏSSİSƏLƏRİNİN MÜDİRİYYƏTİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tikilməkdə Olan Müəssisələrinin Müdiriyyəti açıq tender elan edir.
Tenderin predmeti Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tabeliyində olan Tibb Müəssisələrinin cari təmir işləri satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əlaqələndirici şəxs: Elgün Süleymanov, Satınalma və Planlaşdırma şöbəsinin müdiri
Email: Ftprovision@gmail.com
Əlaqə telefonu: +994 12 493 03 18



**ŞƏKİ ŞƏHƏR İCRA HAKİMİYYƏTİ TENDER ELAN EDİR.**

Şəki Şəhər İcra Hakimiyyəti açıq tender elan edir.
Tenderin predmeti Şəki şəhərinin mərkəzi ilə axan Qurcana çayının qəzalı vəziyyətdə olan sahil divarlarının, su tənzimləyici bəndlərin bərpa olunması, təmiri və çay yatağının təmizlənməsi işlərinin satınalmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Cahangir Nəbiyev, Baş memar
Email: c.nebiyev@sheki-ih.gov.az
Əlaqə telefonu: +994 24 244 24 82



**AZƏRBAYCAN RESPUBLİKASI QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ MƏNZİL İSTİSMAR DEPARTAMENTİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Qaçqınların Və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi Mənzil İstismar Departamenti açıq tender elan edir.
Tenderin predmeti Bakı, Sumqayıt, Mingəçevir şəhərilərində və Biləsuvar, Bərdə rayonlarında salınmış məcburi köçkün qəsəbəsində fərdi yaşayış evlərinin və mənzillərinin təmirinin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Fariz Abbasov, Sektor müdiri
Email: fariz.abbasov@idp.gov.az
Əlaqə telefonu:  +994 12 430 15 30



**"ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN EDİR.**

"Əsaslı Tikinti Və Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir.
Tenderin predmeti Qazax rayon Heydər Əliyev Mərkəzinin cari təmir işləri ilə bağlı xidmətinin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Murad Mirzəxanlı, Baş mütəxəssis
Email: tender@culture.gov.az
Əlaqə telefonu: +994 12 565 01 47



**“CƏBRAYIL, QUBADLI VƏ ZƏNGİLAN RAYONLARINDA BƏRPA, TİKİNTİ VƏ İDARƏETMƏ XİDMƏTİ” PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

“CƏBRAYIL, QUBADLI VƏ ZƏNGİLAN RAYONLARINDA BƏRPA, TİKİNTİ VƏ İDARƏETMƏ XİDMƏTİ” PUBLİK HÜQUQİ ŞƏXSİ açıq tender elan edir.
Tenderin predmeti Zəngilan şəhərində yerləşən 2-ci yaşayış məhəlləsinin tikinti-quraşdırma işlərinin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Zaur İbrahimov, Satınalmalar və təchizat departamentinin müdiri
Email: zaur.ibrahimov@jgz.gov.az
Əlaqə telefonu: +994 51 207 89 98





www.atmia.az